# Musa Ələkbərli yaradıcılığının poetik kodu sevgidir



■ Buludxan Xəlilov, filologiya elmlər doktoru, professor

**Musa Ələkbərliyə görə, dünya sevgidən doğulub. Təsadüfi deyil ki, 2007-ci ildə çap olunmuş kitabının adı belədir: "Dünya sevgidən doğulub".**

Onun bütün şeirlərində bir sevgi var. Ancaq bu sevgi bir subyektin, fərdin sevgisi deyil. Çox təbii, mükəmməl, kişi xarakterli bir sevgidir. Əslində Musa Ələkbərlinin sevgi şeirləri bir sevgi dastanıdır. Bütün çalarları, anları, məqamları və təbiiliyi ilə birlikdə...

Musa Ələkbərli sevgidən yazdığı üçün həmişə gəncliyin sevimlisi olacaq. Nəsillər dəyişəcək, ancaq hər dəfə gəncliyin onun şeirlərinə ehtiyacı olacaq.

Musa Ələkbərlinin sevgisi onu həmişə doğulub boya-başa çatdığı kəndə çəkir, ora aparır. Onun sevgilisini kənddə təbii və səmimi münasibətlər gözləyir: Qapıda bəslənən payızlıq quzunun onun sevgisinin qədəminə qurban kəsilməsi, alışacaq bir ocaq, bir ev, şəhərdən gələn gəlin üçün yığılacaq gül-çiçək və s.

Musa Ələkbərlinin şeirlərinin ruhu kəndlə şəhər arasında çarpışır. Ancaq onu kəndə çəkən məqamlar daha üstündür. Ən başlıcası isə kəndin öz təbiiliyi onu özünə daha çox çəkir Hərdən fikirləşirəm ki, kənddə, kəndin təbiətində elə mövzular var ki, onu məhz Musa Ələkbərli yazmalıdır və yazacaq. Ancaq o, kənddən ayrı düşdüyü üçün bu mövzulardan da uzaq düşübdür. Kənddə elə mövzular var ki, (kəndin təbiəti, həyat tərzi, məşğuliyyəti, adət-ənənəsi və s.) onların hamısı Musa Ələkbərlini gözləyir, onun qələminin gücünə ehtiyac hiss edir. Bir sözlə, kənd onu özünə çəkir. Təsadüfi deyil ki, bəlkə heç özü də mahiyyətinə varmadan "Bulaq bayatıları", "Sizin küçəniz" şeirlərində bunu hiss etdirir. Məsələn, "Bulaq bayatıları" şeirində:

*O bulağın yanı yarpız,*
*O suların tamı yarpız.*
*Yarpız ətri vurdu məni*
*Hanı bulaq, hanı yarpız?!*

Yaxud:

*O bulağın suyu baldı,*
*O bulağın dili laldı.*
*Ordan bir qız qaçırdılar,*
*Su sənəyi suda qaldı.*

"Sizin küçəniz" şeirində:

*Sevən ürəyimi alıb ovcuna,*
*Ömrümə - günümə sıxıb küçəniz.*
*Bəlkə də həsrətim yetəcək sona,*
*Muştuluğa qaçan bir uşaq kimi,*
*Gedib kəndimizə çıxıb küçəniz.*

Musa Ələkbərlinin sevgi şeirləri bitib tükənmir. Özünün şeirlərindən birində dediyi kimi ("Ağ gül" şeirində) onun sevgisi ağ gülə bənzəyir.

*Uçdu əllərimdən bir ağ göyərçin,*
*Qondu uzaqlarda axan buluda.*
*Hələ əriyirəm mən için-için,*
*Hələ gözləyirəm qəm uda-uda!*

Musa Ələkbərlinin sevgisi öz yolunu başına alıb gedir. Onun sevgisi əbədi olaraq ağ gülün axtarışındadır.

*Düşmüşəm yolların ağına, ağ gül,*
*Başımın üstündə ağ bir duman var.*
*Dözərəm hicranın dağına, ağ gül,*
*Bilsəm vüsalına hələ güman var.*

Musa Ələkbərli o qədər səmimidir ki, ürəyinə gələnlər dilində səslənir. Özü də təbiətin özü qədər təbii səslənir. "Sən məndən şeir istə" deyən şairi sevgidə hər şey qayğılandırır: Boynu bükük bənövşə də, qəlbindəki məhəbbətin bir ocaq külünə çevrilməsi narahatlığı da, gəncliyin keçib-getmək qorxusu da (indi yaş o yaş da deyil!), yatmış duyğuların oyanması da, qarşı tərəfin onu anlayıb və duymaq qabiliyyəti də.

Musa Ələkbərli öz sevgisini dəniz, ümman ləpəsi və qasırğası kimi yaşadır. O, ürəyində işıq azalanların, son ümidini və gücünü toparlamaq istəyənlərin yanına gələcəyini söyləyir.



*Süd kimi ay doğur başının üstə,*
*Ulduzlar göylərdə çataq-çataqdı.*
*Xəyalın yol gedir dumanda, sisdə.*
*Durub düşünürsən bu gecə vaxtı.*

*Səninçün hardasa bir ulduz yanır,*
*Qəlbin işıqlanır, yer işıqlanır.*
*Nə vaxt o ulduzun yanıb sozalsa,*
*Haçan ürəyində işıq azalsa,*
*Bil ki, gələcəyəm...*

Musa Ələkbərlinin sevgisi bir nağıl dünyasına bənzəyir. Həmin nağıl dünyasında o, zümrüd quşunun qanadı üstündə gəlir, öz şeirləri ilə qırxıncı qapını açmağa inamlı olduğunu söyləyir. Ancaq o, nağıllar dünyasında da, real sevgidə də o qədər tərtəmiz, dupdurudur ki, lap uşaq kimi. Musa Ələkbərli sevgidolu nağıllı dünyasında elə öz eşqinə aldana-aldana yaşayır və yazır:

*Meydan axtarırdım hey çapmaq üçün,*
*İndi qanadından vurulan quşam.*
*Sənin ürəyində yer tapmaq üçün*
*Allah olmalıydım - şair olmuşam!*

Musa Ələkbərli etiraf etməyi bacaran bir şairdir. Onun etirafları bir şairin tərcümeyi-halının, daha doğrusu, yaradıcılıq mərhələlərinin poetik kodudur. Poetik kodları açmaq üçün onun yaradıcılığına dərindən bələd olmaq lazımdır. Nə qədər təvazökarlıq, nə qədər sevgi işində olan, sevgidən mayası yoğurulan bir qələm adamının təvazökarcasına söylədiyi fikirdir.

*Ey uzaqdan yandıran,*
*Gərək odunda bişəm.*
*Məni sevsən bilərdin*
*Sevgidə "görməmiş"əm.*

Musa Ələkbərlinin şeirlərində səmimiyyət yüksək həddədir. Onun şeirlərindən dağların ətri gəlir. Onun şeirlərində hissləri, duyğuları bulaq suyu kimi tərtəmiz, dupdurudur. Onun şeirlərindəki fikirlər öz dadı, duzu ilə oxucuya xoş əhval-ruhiyyə yaradır.

Musa Ələkbərli şeirin, sözün dəlisidir. O, başqa bir işin, sənətin sahibi ola bilməz. O, başqa bir işin, sənətin öhdəsindən də gələ bilməz. Onun işi, sənəti söz demək, şeir yazmaqdır. O, bu işin, bu sənətin adamıdır. Təsadüfi deyil ki, o, "Dəli Ələkbər" şeirində onların nəslinə neçə əsrdir ki, "Dəli Ələkbərli" deyildiyini söyləyir. Dəli Ələkbərin sazlı, sözlü bir aşıq olduğunu yazır:

*Qarda-çovğunda üşüyənimizi*
*Öz odu isidir,*
*Ruhun şad olsun,*
*Dəli Ələkbər,*
*Bir nəvən də*
*şeirin, sənətin*
*dəlisidir!*

Musa Ələkbərlinin insanlara ən böyük payı şeir payıdır. O, şeirlərini səxavətlə həm həsr edir, həm də paylayır, daha doğrusu, oxucuların ünvanına çatdıra bilir.

Musa Ələkbərli ürəyinə yatan mövzulardan bəhs etməklə yanaşı, ürəyinə yatan adamlara da ünvanladığı şeirləri ilə bir daha şair həssaslığını göstərə bilir. "Professor Fərhad Zeynalova", "Məmməd Araza məktub", "Fikrət Sadıq əminizdi", "İsmayıl nağılı", "Vaqif İbrahimin xatirəsinə", "Dağları saz üstdə kökləd Xudu", "Qəribə şairdi bu Fikrət Qoca", "Əli müəllim", "Xəlil Rza", "Bəxtiyar", "Hüseyn qağa", Rəşid Poladoğlunun əziz xatirəsinə həsr etdiyi "A dağlar" və s. şeirlər Musa Ələkbərlinin insanlara həssaslığından, diqqətindən, etibarından, səmimiyyət və sədaqətindən xəbər verir.

Musa Ələkbərli həmişə ədəbi ictimaiyyətin diqqət mərkəzində olan şairlərdəndir. Hələ keçən əsrin 70-ci illərində (1976-cı ildə) çap olunmuş bir almanaxda ("Səhər şəfəqləri" adlı almanax) Musa Ələkbərlinin də şeirləri çap olunmuşdu. Həmin şeirlər barədə Bəxtiyar Vahabzadə öz ürək sözlərini bildirmiş, almanaxda çap olunan şeirlər içərisində Musa Ələkbərlinin şeirlərini xüsusilə fərqləndirmiş və onun gələcəyinə inandığını söyləmişdi. Ədəbi mühitdə öz sözü olan Xəlil Rza da Musa Ələkbərlinin istedadından, aydın və səlis poetik dilindən, bənzərsizliyindən bəhs etmişdir. Xalq şairi Məmməd Araz Musa Ələkbərlinin son dərəcə təvazökar, iddiasız bir şair olduğunu söyləmişdir. Onun yaradıcılığının bir sıra müsbət məziyyətləri ilə yanaşı, hadisələri şirin bir ləhcədə, dildə təsvir etməsini də xüsusilə qiymətləndirmişdir. Yeri gəlmişkən Musa Ələkbərlinin dilinin sadəliyi, aydınlığı oxucunu özünə çəkir.

Musa Ələkbərli barədə Nizami Cəfərovun fikri də onun yaradıcılığının əsas qayəsini xarakterizə edir. O, Musa Ələkbərlinin sevgi fəlsəfəsinin mahiyyətini açır. Nizami Cəfərov Musa Ələkbərlinin sevgi fəlsəfəsini belə xarakterizə edir ki, o, öz sevgisinin "tərcümeyi-hal"ını yazır, "...mənsub olduğu etnik-mədəni (etnoqrafik) sistemin ümumi (universal!) sevgi dastanını" danışır.

Musa Ələkbərlinin yaradıcılığında "Torpaq yanğısı", "Mübarizlik dərsi" poemalarını da xüsusi olaraq qeyd etmək lazımdır. Bunlardan 2010-cu ildə yazdığı "Mübarizlik dərsi" poeması torpaqlarımızın bütövlüyü uğrunda canını fəda edən Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimovun unudulmaz xatirəsinə həsr olunmuşdur.

*Tanrı çox görməsin bu əzizliyi,*
*Eşq olsun Mübariz deyən dillərə!*
*Bu yurd sevgisini - Mübarizliyi*
*Örnək tək ötürək biz nəsillərə!*

Musa Ələkbərlinin şeirlərinin dili sadə, anlaşıqlı və aydındır. Onun ruhu xalqa o qədər bağlıdır ki, şeirlərində bunu görməmək O, danışıq dilinin, xalq dilinin imkanlarını asanlıqla poeziyaya gətirir. Məsələn "ilə" qoşmasının xalq dilində işlənən "nan", "nən" variantını poetik dilin imkanlarına uyuşdurur: "Belə qayım söz olmaz, Dərdim bu dilnən oldu"; "Eh, bizə nə oldusa, ulusnan, elnən oldu"; "Bu ayrılıq, a gülüm, Bir yaman əlnən oldu" və s.

Musa Ələkbərlinin şeirlərində saysız-hesabsız poetik tapıntılar vardır ki, onların hər biri oxucunu özünə bağlayır, oxucunu yaxşı mənada ram edir. Məsələn: "Bizim aramızda aylar yaşayır, Qaradinməz aylar, küsülü aylar"; "Zaman axıb gedir bir arzu kimi, Baxıram arzuma tamarzı kimi"; "Dənizlə sahil tək qovuşsaq da biz, əlinə toxunmamışdı"; "Süd kimi ay doğur başının üstə, Ulduzlar göylərdə çataq-çataqdı"; "Sənə ürəyimi aça bilmərəm, Elçi göndərərəm gecələr ayı", "Göylərdən qəlbimə ilham süzülür... Sevgi şeirləri yazacağam mən!" və s.

Musa Ələkbərlinin şeirlərindəki məcazlaşma sistemi də diqqəti cəlb edir. Onun şeirlərindəki metaforik ifadələr poetik fikrə ruh, qol-qanad verir: "Ağaclar hamısı əli üzündə, Fikirli görünür adamlar kimi"; "Ömrün qönçə vaxtı, ömrün gül vaxtı, Görüşə ilk bahar yağışı gəldi"; "Görən niyə belə alışır səsim, Yoxsa günəşləmi qohum olmuşam?!" və sair.

Musa Ələkbərli bu gün yaradıcılığının elə bir mərhələsindədir ki, o, bir tərəfdən yaradıcılığının tərcümeyi-halını ümumiləşdirir, digər tərəfdən sözdə, şeirdə nüfuz sahibi kimi qəbul olunur, ona yeni-yeni yaradıcılıq uğurları və nailiyyətlər arzulayırıq.

*03.09.2015-ci il*